# HİKMƏTLİ SÖZLƏR, ZƏMANƏDƏN ŞİKAYƏT VƏ ETİRAZLAR

Mirzə Şəfi Vazeh

Pdfləşdirən: kitablar sayti

http://www.kitablar.com

Qəlbimin, ruhumun qanadıyla
mən, Çıxdım aydınlığa zülmət gecədə. Gördüm şeriyyətdə həqiqətimi- Tapdım həqiqətdə şeriyyətimi.*/ /*Qoy sən həqiqəti söyləyən zaman, Qopsun min təhlükə, qopsun min tufan Gəl baxma bunlara, ey Mirzə Şəfi! Uca tut daima arı, şərəfi. Həqiqət bir şeydir gözəllik ilə, Olarmı gözəllik gəlməsin dilə? Cəzadan, təqibdən olmaqçün uzaq, Bəzən sözlərini söyləmə çılpaq- Asta ol, özünü daim gözlə sən, Acı sözünü də, de xoş sözlə sən.*/ /*Şahların ziynətli hədiyyəsinə, Təriflə vurarıq daha da ziynət. Ancaq təbiətin min töhfəsinə, İnanın, verməzik bir dəfə qiymət.*/ /*Selləri coşdurub, çaylar axdıran, Göydə buludlara şimşək çaxdıran, Sonsuz qüvvələri peyda eyləyən Bəşər taleini vəsf edirəm mən.*/ /*İti qılınc sürüşərək düşsə yatağa, Üzü yumşaq ipək üstən sıçrar qırağa. Bu dünyada kəskinlikdən, zor, gücdən artıq Səmər verər xeyirxahlıq və mehribanlıq.*/ /*Düzlüklə alçaqlıq çarpışan zaman Alçaqlıq nədənsə qazanır hər an. Çünki alçaqlarçün ən alçaq işlər, Alçaqlıq deyildir, hünərdir, hünər.*/ /*Müdriklik adamı çox xoşbəxt edər, Lakin elm artdıqca, çoxalar kədər. Bu dünya üzündə xoşbəxtdir axmaq, Aqil həsəd etməz ona da, ancaq.*/ /*Özünü şux göstər, özünü saxla, Getməsin üzündən təravət əsla. Amma düşünmə ki, ölüm nə gəzir?! O, durar qapında bir gun müntəzir.*/ /*Mal-dövlət vərəsəlik olsa da, asan, Zəhmət çəkib bir ev tikmak müşküldür yaman. Babaların, nənələrin şanı-şöhrəti, Nəvələrin qürurunu artırar qəti! Lakin, verər insanlara əsl ləzzəti, Öz əliylə qazandığı varı-dövləti.*/ /*Bu dünyanın kədərini, qəmini, Sorsan, deyər yer üzündə hamıdan, Ahu-fəğan çıxarармı bu dərdi Ürəklərin viran qalmış damından? Fəlakətə, işkəncəyə, kədərə, Üstün gəlib qılınc çəkmək gərəkdir Ümid bağla sən bir yolluq hünərə, Üləmalar* nə desələr, kələkdir. Anlaşılmaz möüzənlə, duanla Sən artırma bu dünyada ələmi. Qoy məqsədin bir şey olsun... gəl anla, Tez ol qurtar dərdü-qəmdən aləmi!*/ İstinad: (*Alimlər. Burada kinayə və eyhamla işlədilm dir. Mollalar, ruhanilər nəzərdə tutulur. Red.) /*Şikayətmi edim, gülümmü, bilməm Dünyanın yarısı dərrakədən kəm. Edir utanmadan, eyləmədən ar, Mini bir axmağın sözünü təkrar. Yox! Səni mədh edim, qoy ey yaradan, Ki, tutmuş dünyanı bu qədər nadan. Etməsəydin bizə bu mərhəməti, Olmazdı ağlın da qədri, qiyməti.*/ /*Məni sevənlərə məhəbbətim var, Nifrət edənlərə min nifrətim var. Əgər əl çəksəm də, səadətimdən, Mən əl götürmərəm bu adətimdən. Kişisən, var isə səndə cəsarət, Olsun xislətində belə bir adət: Yaxşılıq edənə yaxşılıq eylə, Cavab ver yamana yamanlıq ilə. Türfə gözəlləri sevib duyarlar, Qəşəng gül yanağı sığallayarlar. Əkib becərərlər münbit tarlanı Əzib öldürərlər əfi ilanı. Namusa, qeyrətə sataşanları Əfv edən, əslində zəif adamdır. Yumşaqlıq yaraşar qadın qəlbinə Kişininki isə bil, intiqamdır!*/ /*Ey bəşərin xilasına edilən kömək,- Ey göylərin ilk töhfəsi, sevimli əmək! Yenə xidmət edənlərə təsəllisən sən, Müdriklərin ilk arzusu, ilk istəyisən. Ancaq, nadan çətin işdən qaçar asana, Məhv olardım dirənmədən min yol əsana! Ey göylərin ilk vergisi!.. İnan ki, sənə Daim sadiq qalasıyam gedincə sinə.*/ /*Gülüb cavabını qaytar mehriban, Birisi kinayə edərsə sənə. Bil ki, kinayayə layiq olmayan Min bir kinayədən alçalmaz yenə.*/ /*Sən öz mənliyinin dar sarayından Kənara çıxmasan, ey dostum, inan Anla ki, ömründə ola bilməzsən Düzlük evində də, bir dəfə mehman.*/ /*Tozu qaldırsa da nə qədər külək, Toz öz tozluğunu dəyişməyəçək. Gömülmuş olsa da, toza cəvahir, Yenə də, qiyməti öz üstundədir.*/ /*Ələ qədəh alsan, gəl olma nadan,

İçmə hiss etmədən, içmə duymadan. Özünü böyudüb boş yerə şişmə, Bir də ki, alçalıb ayağa düşmə. Elə bil şeh ilə dolubdu lalə, Qızarır əlində qızıl piyalə. İç, amma su kimi içərsə bir kəs Meyin bu dünyada qədrini bilməz.*/